# Əhaliyə təcili tibbi yardım xidmətinin səviyyəsi yüksəldilir



**Təcili tibbi yardım xidməti gün ərzində, bayram, istirahət günləri, gecə saatları digər tibb müəssisələrinin işləmədiyi vaxtda əhalinin sağlamlığının keşiyində dayanan qurumdur. Təcili tibbi yardım işçiləri beynəlxalq tədbirlər, təbii fəlakətlər, bayram şənlikləri, xalqın şad və həmçinin ağır günlərində daima əhali ilə sıx qarşılıqlı münasibətdə olaraq vəzifə borcunu yerinə yetirir.**

2019-cu ilin 10 ayı ərzində Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 608250-dən artıq ümumi müraciət daxil olmuşdur. Müraciət edənlərdən 55000-dən çoxu xəstəxanalara yerləşdirilmişdir. Uşaqlar üçün edilən çağırışların sayı 66000-dən, onlardan xəstəxanalara yerləşdirilənlərin sayı isə 10800-dən artıq olmuşdur. Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında əvvəllər fəaliyyət göstərən pediatrik briqadalar bərpa olunmuşdur. Bu səbəbdən həkim yanında uşaq ölümü qeydə alınmamışdır.

Bu müddət ərzində reanimasion tədbirlərin görülməsi nəticəsində çox ağır vəziyyətlərdən çıxarılaraq həyatı xilas edilən xəstələrin sayı 3000 nəfərdən çox olmuşdur. Ürək-qan damar xəstəlikləri ilə bağlı müraciətlərin sayı 65715, hospitalizasiya 10924, miokard infarktı ilə müraciətlərin sayı 734, hospitalizasiya 682, insultla müraciətlərin sayı 3014-ə çatmışdır. Keçən illə müqayisədə miokard infarktı ilə bağlı müraciətlərin sayında azalma, insultla bağlı müraciətlərin sayında isə artım müşahidə edilir. Sinir sistemi xəstəlikləri ilə əlaqədar müraciətlərin sayı artdığından, belə xəstələrə göstərilən tibbi yardımın keyfiyyətini yüksəltmək məqsədilə, nevrologiya üzrə ixtisasartırma kurslarında dəfələrlə iştirak etmiş həkimlərdən ibarət xüsusiləşmiş briqadalar yaradılmışdır.

Doğuşla bağlı müraciətlərin sayı 2315, hospitalizasiya 2296; tibb müəssisəsindən kənar doğuşların sayı 45 olmuşdur ki, onların da hamısı hospitalizasiya olunmuşdur. Hospitalizasiyadan imtina edilən bir hal barəsində Bakı Baş Səhiyyə İdarəsinə, ərazi üzrə qadın məsləhətxanasına, poliklinikaya və digər qurumlara məlumat verilmişdir. BŞT və TTYS-nin bölmələrinə (ambulator) birbaşa müraciətlərin sayı 30550, hospitalizasiya 2736-ya çatmışdır. Hospitalizasiya olunan və evdə qalan ağır xəstələr haqqında ərazi üzrə müvafiq poliklinikalar məlumatlandırılmışdır.

Ümumi müraciətlərin içində bədbəxt hadisələrin sayı: 21928, hospitalizasiya 14817 olmuşdur. Bədbəxt hadisələr zamanı xəsarət alanların çox hissəsini travmalar (zədələnmələr) təşkil edir. Travmalara məişət, nəqliyyat, istehsalat və digər zədələnmələr aiddir. Zədələnmələrin ümumi sayı 18064, hospitalizasiya 11367, bunlardan avtoqəza zamanı xəsarət alanların sayı 2202, hospitalizasiya 1911 olmuşdur.




Pediatrik reanimasiya briqadalarının işi təkmilləşdirilmişdir. Belə ki, Səhiyyə Nazirliyi tərəfindən ayrılmış yeni küvez aparatlarının köməyi ilə uzaq rayonlardan gətirilən və paytaxtın doğum evlərində anadan olmuş az çəkili və ya ağır qüsurlarla doğulmuş 760 körpə Respublika Perinatal Mərkəzinə, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutuna hospitalizasiya edilmişdir.

Təcili tibbi yardıma ehtiyacı olan 158 nəfər yaşayış yeri məlum olmayan şəxs ilkin tibbi yardım göstərilərək cərrah, travmatoloq, toksikoloq və rentgen müayinəsindən keçdikdən, təmiz geyimlə təmin edildikdən sonra müvafiq xəstəxanalara yerləşdirilmişdir.

BŞT və TTYS-nin təcili yardım briqadaları poliklinikalar tərəfindən laborator müayinələrin aparılması üçün götürülən materialların daşınmasında yaxından iştirak edir. Belə ki, 2019-cu ilin 10 ayı ərzində 5800-ə yaxın laborator daşınma icra edilmişdir.

Stansiyanın 21 bölməsinin hamısına internet xətti çəkilmiş və kameralar quraşdırılaraq rəhbərlik, həmçinin əməliyyat və hospital işlərin təşkili şöbəsi tərəfindən bölmələrin işinə nəzarət gücləndirilmişdir.

Təcili Yardım Stansiyasına müraciət edən şəxslərin xəstəxanalara səmərəli yerləşdirilməsi məqsədi ilə əməliyyat və hospital işlərin təşkili şöbəsi tərəfindən gündəlik olaraq Bakı şəhərinin tibb müəssisələrində mövcud olan boş çarpayıların sayı barədə məlumat toplanır ki, bu da hospitalizasiya zamanı meydana çıxan problemlərin qarşısını alır və o cümlədən xəstələrin ərazi üzrə müvafiq bölgüsünə yardım etmiş olur.

BŞT və TTYS-nin əlavə hazırlıq keçmiş həkim və orta tibb işçiləri IV İslam həmrəyliyi oyunları-2019, Formula 1 Azərbaycan Qran-Prisi yarışları, "Olimpiada Gənclər Festivalı-2019", Beynəlxalq İnformatika Olimpiadası-2019, UEFA LİGUE Final-2019, həmçinin 1200-dən artıq beynəlxalq əhəmiyyətli dövlət tədbirləri zamanı zəruri hallarda tədbir iştirakçıları və şəhərimizə gələn qonaqlara ilkin tibbi yardım göstərməklə yaxından iştirak etmişlər. Tibb işçilərinin bu ağır əməyi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən yüksək qiymətləndirilmiş və BŞT və TTYS-nin bir qrup işçisi mükafatlandırılmışdır.

Təcili və təxirəsalınmış tibbi yardım həkimləri ixtisas hazırlıqlarının təkmilləşdirilməsi məqsədilə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunda və respublikadan kənarda keçirilən təkmilləşdirmə kurslarında iştirak etmişlər. Kollektivin bütün həkim heyəti sertifikasiyadan keçmiş, bir çoxları yüksək ixtisas dərəcələri almışlar. Orta tibb heyətinin tam sertifikasiyası başa çatmışdır.

BŞT və TTYS-nin bölmələrində hər həftə aktual mövzulara aid, həmçinin səhiyyə sahəsində olan yeniliklərlə tibb heyətini tanış etmək məqsədilə elmi-praktik konfranslar, həkimlərin bilik səviyyəsini yüksəltmək məqsədi ilə sorğular keçirilir.

Həvəsləndirmə məqsədi ilə bölmələrarası istehsalat yarışı keçirilmişdir. "İlin ən yaxşı bölməsi", "İlin ən yaxşı həkimi", "İlin nümunəvi tibb işçisi", "İlin ən yaxşı tibb bacısı" nominasiyaları üzrə tibbi personal və bölmələr fəxri diplomlarla təltif edilmiş, xatirə hədiyyəsi ilə mükafatlandırılmışlar.

2015-ci ilin mart ayından 2019-cu ilin 10 ayı ərzində BŞT və TTYS-nin həkim və orta tibb işçilərinin ünvanına 1700-dən artıq təşəkkür məktubu və zəngləri daxil olmuşdur və həmin şəxslərə stansiyanın rəhbərliyi tərəfindən təşəkkür elan edilmişdir.



BŞT və TTYS-nin kollektivi bundan sonra da var qüvvəsi və bacarığı ilə tibb sahəsində olan yeniliklərdən istifadə etməklə paytaxt sakinlərinin və qonaqların sağlamlığı keşiyində inamla duracaqdır.

**Rauf NAĞIYEV,**
**Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi.**